# HƏSRƏT

## SƏNSİZ ÜRƏYİMDƏ

Sənsiz ürəyimdə nərgiz sarısı,
Bənövşə həsrəti, lalə dağı var.
Yanan zirvəsində Kərəm naləsi,
Donan gədiyində Lələ dağı var.

Sənsiz ürəyimin yanır odası,
Sən idin qəlbimin ilkin sevdası,
Günbəgün, ilbəil artır qadası,
Eşqinin sinəmdə hələ dağı var.

Içindən dağıtdı bu dağı həsrət,
Sinəm dərd ağacı, budağı həsrət.
Haqdan qazanıbdı bu dağı Həsrət,
Kimin ürəyinin belə dağı var?

## KİŞİLƏR

Qılıncından şimşək çaxan,
Hanı o, atlı kişilər.
Qığılcım saçan nəfəsli,
Atı qanadlı kişilər.

Yad olub şeytana şərə,
Arxasını vurub yerə,
Qan uddurub namərdlərə,
Nəsilli, zatlı kişilər.

Yağıya-yada dərd olub,
Sevgisi oba-yurd olub,
Özü düşməni mərd olub,
Tanınan adlı kişilər.

Zamanında çox dərd görüb,
Qeyrətini həmdərd görüb,
Sibirlərə sinə gərib,
Sinəsi odlu kişilər.

Canlı bir kitab idilər,
Vaxtında çox şey dedilər,
Bir tarix olub getdilər,
Söhbəti dadlı kişilər.

## GÖZLƏRİN AYDIN OLSUN

Daha səni axtarmıram,
Izlərin aydın olsun.
Deməyə sözüm yoxdu,
Sözlərin aydın olsun.

Görüşə gələn güllər,
Əlimdə açdı dillər,
Məcnunsuz qaldı çöllər,
Düzlərin aydın olsun.

Həsrətin gəldi baha,
Dözmədi nalə-aha,
Gözlərim görmür daha,
Gözlərin aydın olsun.

## QƏNİM OLSUN

Haqq yeyənə, haqq danana,
Fələk özü qənim olsun.
Allahını unudana,
Gərək özü qənim olsun.

Dost hayına gəlməyənə,
Göz yaşını silməyənə,
Çörək qədri bilməyənə,
Çörək özü qənim olsun.

Uç yanına mələklərin,
Yerdə yoxdu Həsrət yerin,
Şər adama bir gün şərin.
Görək özü qənim olsun.

## QAYIDIM

Qartal qanadların mənə verginən,
Uçum o dağları süzüm qayıdım.
Könlümə düşübdü Dəlidağ, Qoşqar,
Murovun üstündə gəzim qayıdım.

Yolları bağlıdı çata bilmirəm,
Adını qəlbimdən ata bilmirəm,
Vətən həsrətilə yata bilmirəm.
Öldürsün həsrətin gözüm qayıdım.

Haçandı yağıya gəribdi sinə,
Gözləyir ki, ellər yurduna dönə,
Qoşulub dumana, çisginə, çənə,
Yayılsın qoynuna sözüm qayıdım.

Zaman ürəyimə qara dağ çəkdi,
Həsrəti sinəmdə ləçək-ləçəkdi,
Indi bənövşələr çiçək-çiçəkdi.
Barı bircəciyin üzüm qayıdım.

Qaldırım budaqdan düşən yarpağın,
Yanım ağrısına sınan budağın,
Ellər həsrətlisi ana torpağın,
Toxunsun üzünə üzüm qayıdım.